

> ***2019-cu il tarixdə dərin islahatlar ili kimi qalacaq. Siyasi islahatlar, kadr islahatları, struktur islahatları, iqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar bizim gücümüzü artırmışdır.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

# 2019-cu il iqtisadi və sosial baxımdan uğurlu olub

***❒ Azərbaycan Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısı bildirib ki, hesabat dövründə iqtisadi sahədə müsbət nəticələr əldə edilib: "Bu nəticələr göstərir ki, bizim siyasətimiz düşünülmüş siyasətdir. Hesab edirəm ki, Azərbaycan 2019-cu ildə iqtisadi sahədə qarşıda duran bütün vəzifələri uğurla icra etmişdir. Təkcə rəqəmlərə baxanda demək kifayətdir ki, 2019-cu il iqtisadi inkişaf baxımından ölkəmiz üçün uğurlu olmuşdur. Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmizdə aparılan köklü islahatlar aparıcı beynəlxalq qurumlar tərəfindən də təqdirlə qəbul edilir. Deyə bilərəm ki, bütövlükdə 2019-cu il dərin islahatlar ili olmuşdur - həm siyasi, iqtisadi, sosial sahələrdə, həm də kadr və struktur islahatları sahələrində. Bu islahatlar inkişafımızın bundan sonra daha da uğurlu olacağına imkan verəcək, o cümlədən iqtisadi artım daha da böyük rəqəmlərlə ölçüləcəkdir".***

Dövlət Statistika Komitəsinin yaydığı sosial-iqtisadi göstəricilər də ötən il Azərbaycanda sosial-iqtisadi sahələrdə mühüm nailiyyətlər əldə edildiyindən, Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan məqsəd və hədəflərə doğru yeni, inamlı addımlar atıldığından xəbər verir.

Azərbaycan Prezidentinin neft və qazdan asılılığın azaldılması məqsədilə 2019-cu ildə sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması, müasir texnologiyaların və elektron kənd təsərrüfatı sisteminin tətbiqi, özünüməşğulluq proqramının icrası, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunmaları və s. tədbirləri davam etdirilib. Bütün bunların nəticəsində hesabat dövründə müsbət nəticələr əldə olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, il ərzində 46,7 milyard manatlıq və ya 2018-ci illə müqayisədə 1,8 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 14,3 faiz artıb.

Azərbaycanda ÜDM-in strukturunda sənayenin üstün artım tempi qlobal trend olaraq dördüncü sənaye inqilabı ilə səsləşir. Sənayenin ÜDM-də xüsusi çəkisinə görə, Avropada ön sırada gedən respublikamız hazırda sənayenin strukturunda neftdən qeyri-neft bölməsinə uğurlu keçid edir. Təkcə son iki ildə qeyri-neft sənayesində əsas kapitala yönəldilən investisiya 70 faizə yaxın artıb. Bu, həm də neft sənayesində əldə edilən artımın mərhələli şəkildə qeyri-neft sektoruna transfer olunması deməkdir. Belə bir vəziyyət isə ondan xəbər verir ki, qeyri-neft sektoru əldə edilən iqtisadi artıma dominant olaraq təsir göstərir. Yeri gəlmişkən, hazırda qeyri-neft sektorundakı artım ümumi iqtisadi artımdan daha yüksəkdir. Bu, eyni zamanda, 2015-ci ildən sonra dərinləşən islahatlar nəticəsində iqtisadiyyatın mərhələli şəkildə şaxələnməsinin real nəticələri ilə bağlıdır. Digər sahələrdə, eləcə də aqrar, turizm, xidmət sektorlarında artım tempinin proqnozlaşdırıldığından daha çox olması, makroiqtisadi sabitliyin qorunub saxlanması da keçən ilin əsas iqtisadi nəticələri kimi xarakterizə olunur.

Hesabat dövründə ölkədə istehsal olunan ümumi daxili məhsulun (ÜDM) həcmi əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 81 milyard 681 milyon manata çatıb, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunan əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda isə 0,4 faiz artıb. ÜDM-in 41,4 faizi sənaye sahəsində istehsal edilib, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,7 faizini təşkil edib.

Keçən il ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 184 milyon manat vəsait yönəldilib, sərf edilən vəsaitin 65,4 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil edib. Ümumi sərmayənin 66,3 faizi məhsul istehsalı, 25,8 faizi xidmət sahələrinə, 7,9 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsait isə ümumi sərmayənin 69,8 faizini təşkil edib. Əsas kapitala yönəldilən sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52 faiz, büdcə vəsaitləri 28,3 faiz, bank kreditləri 12 faiz, əhalinin şəxsi vəsaitləri 5,7 faiz, büdcədənkənar dövlət fondlarının vəsaitləri 1,2 faiz, sair vəsaitlər isə 0,8 faiz təşkil edib.

Hesabat dövründə Bakı şəhərində "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi, şpris istehsalı müəssisəsi, DOST Agentliyinin və DOST mərkəzlərinin inzibati binaları, Əmlak Xidmətləri Məkanı, Pirallahı Rayon Gənclər Mərkəzi, Sumqayıt şəhərində "SOCAR karbamid" və polietilen zavodları, Muğam Mərkəzi, Nizami kinoteatrının yeni binası, Ağdaşda Biyan Sənaye Parkı, Telekommunikasiya Qovşağında "Şəbəkə" Xidmət Mərkəzi, Beyləqanda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Qəbələ və Qobustan rayonlarında "Azərxalça" ASC-nin filialları, bunlardan əlavə Bakı şəhərində, Naxçıvan Muxtar Respublikasında, Lənkəran, Şəki, Ağcabədi, Lerik, Cəlilabad, İmişli, İsmayıllı, Quba rayonlarında ümumi təhsil müəssisələri, Goranboy, Qazax, Qobustan və Şəmkir rayonlarında xəstəxana binaları və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilib.

*(ardı 2-ci səhifədə)*

*(əvvəli 1-ci səhifədə)*

# 2019-cu il iqtisadi və sosial baxımdan uğurlu olub

Ötən il kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7 milyard 836,7 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bunun 4 milyard 85,5 milyon manatı heyvandarlıq, 3 milyard 751,2 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb.

2018-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə ötən il kənd təsərrüfatının istehsalı 7,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5 faiz, bitkiçilik məhsulları üzrə isə 11,7 faiz artıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə qeyri-neft sektorunun dinamik inkişafının təmin olunması, habelə ixrac imkanlarının genişləndirilməsi istiqamətlərində mühüm tədbirlər həyata keçirilib. "Made in Azerbaijan" brendinin coğrafiyası genişləndirilib. Məhsullarımız bir sıra ölkələrin ticarət evlərində satışa çıxarılıb.

Ölkə rəhbərinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli fərmanı və digər hüquqi sənədlər Azərbaycanda qeyri-neft sektorunun inkişafına, eləcə də ixrac potensialının güclənməsinə müsbət təsir göstərib. Bu fikrin təsdiqi olaraq, Dövlət Statistika Komitəsinin yaydığı məlumata diqqət yetirək. Belə ki, 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən dünyanın 190 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirilib, 117 ölkəyə məhsul ixrac, 181 ölkədən isə idxal olunub.

2019-cu ilin yanvar-sentyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2018-ci ilin müvafiq dövrünə nisbətən 11,7 faiz artaraq 603,5 manat təşkil edib.

İl ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi, vətəndaşların problemlərinin həlli məqsədilə mühüm addımlar atılıb. Prezident İlham Əliyev 2019-cu il başlayandan müxtəlif təbəqədən olan insanların sosial müdafiəsinin güclənməsi, xüsusən həssas kateqoriyadan olan vətəndaşların–şəhid ailələrinin, məcburi köçkünlərin, əlillərin, müharibə veteranlarının, pensiyaçıların müavinət və pensiyalarının xeyli dərəcədə artırılmasını nəzərdə tutan çaxsaylı fərman və sərəncamlar imzalayıb. Bu mühüm sənədlər əsasında hazırlanan və həyata keçirilən sosial paketlər isə sadə vətəndaşın rifahına birbaşa təsir göstərib, hər kəs artımların şəxsi büdcəsinə təsirini aydın hiss edib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə reallaşdırılan kompleks sosial islahatlar nəticəsində sentyabr ayının 1-dən ölkədə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata qaldırılması, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən bir sıra idarə, müəssisə və təşkilatlarda, Neft Şirkətində çalışan işçilərin əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, bununla əlaqədar özəl sektorda çalışanların da əməkhaqlarının yüksəlməsi və bu sahədə şəffaflaşma proseslərinin sürətləndirilməsi nəticəsində 2019-cu ilin sentyabr ayında ölkə üzrə orta aylıq nominal əməkhaqqı 723,4 manata çatıb ki, bu da 2018-ci ilin sentyabr ayı ilə müqayisədə 35,8 faiz çoxdur.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2020.- 31 yanvar.- S.1-2.